# Müəllim və kursant mövqeyində pedaqoji qarşılıqlı təsirin əks olunması

**Gülşən Bəşirova**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Heydər Əliyev adına AAHM-nin " Humanitar və sosial fənlər" kafedrasının dosenti*
**E-mail:** gulizade.gunel@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. F.M. Allahverdiyeva,
ped.ü.f.d., dos.Ə.B. Qədimova

**Açar sözlər:** mövqe, şəxsiyyət. müəllim, kursant, qarşılıqlı təsir, əməkdaşlıq fəaliyyət, subyekt, üslub

**Ключевые слова:** позиция, личность, учитель, курсант, взаимовлияние, сотрудничество, деятельность, субъект, стиль

**Key words:** position, personality. teachers, students, cooperation, mutual influence on activity, subject, style

Ümummilli liderimiz Heydər Əliyev müstəqilliyimizin qarantı kimi ordu quruculuğu məsələsinə həmişə xüsusi önəm vermişdir: "Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir" [1, 14]

Ordu üçün müasir səviyyədə kadrların hazırlanması isə həm də müəyyən dərəcədə müəllim və kursantlar arasında münasibətlərin zəruri pedaqoji tələblərə uyğun qurulmasından asılıdır.

Məlum olduğu kimi, "şəxsiyyət mövqeyi" termini A. Adler tərəfindən irəli sürülmüşdür. Xarici psixoloji və sosioloji ədəbiyyatda bu anlayış sosial istiqamət kimi qəbul edilir. I. Linqart (1970) "mövqe"yi sosiallaşma prosesinin nəticəsi və eyni zamanda müəyyən bir şəraitdə müəyyən bir şəkildə hərəkət etməyin daxili tələbatı kimi qiymətləndirir. Sovet psixologiyasında, S.L. Rubinştein və V.N. Myasişevin əsərləri sayəsində "şəxsiyyət mövqeyi" anlayışının məzmunu şəxsiyyətin bütün dəyər münasibətlərinin gerçəklik hadisələrinə münasibətinin həcmi qədər genişləndirilmişdir. B.Q.Ananyev isə "şəxsiyyət mövqeyi"ni mürəkkəb münasibətlər sistemi kimi müəyyən edir [2]. Bu zaman "ən əhəmiyyətli", xarakter formalaşdıran münasibətlərə o, cəmiyyətə və ideologiyaya, əməyə, digər insanlara və özünə olan münasibətləri aid edir. Şəxsiyyətin qarşılıqlı əlaqələri şəxsiyyət mövqeyini nəzərdə tutur. Şəxsiyyətin qarşılıqlı əlaqəsində şəxsiyyət sistemli bir qurum təşkil etdiyi üçün, şəxsiyyətin qarşılıqlı əlaqəsində mövqe də sistem xarakteri daşıyır.

Şəxsiyyətyönlü mövqeyə aşağıdakılar daxildir:

1) pedaqoqun aşkar məqsədyönlülük və uğura köklənməklə özünü təhlil, özünü tənqid və sərbəstlik prinsipinə əsaslanan özünə olan xüsusi münasibətlər tipi;

2) əməkdaşlıq, müştərək yaradıcılıq, bir-birinə görə narahat olmaq, qarşılıqlı hörmət və qarşılıqlı anlaşma prinsipləri əsasında qurulan və problemli məsələlərin həlli zamanı məhsuldar qarşılıqlı əlaqədə meydana çıxan başqalarına olan xüsusi münasibət tipi;

3) pedaqoji fəaliyyətdə dərketmənin problemliyini, sərbəstliyi və orijinallığı nəzərdə tutan xüsusi münasibət tipi.

Şəxsiyyət mövqeyinin sosial və sosial-psixoloji mahiyyəti fərqləndirilir. T.N. Malkovskaya qeyd edir ki, müasir fəlsəfi, psixoloji və pedaqoji ədəbiyyatda mövqeyin mahiyyətinin anlaşılmasında iki əsas yanaşma özünü göstərir: sosioloji, bu zaman mövqe şəxsiyyətin özünüifadəsinə imkan yaradan şərait kimi qəbul olunur (İ.S.Kon, V.S. Selivanov, F. Fridrix və s.) və sosial-psixoloji, bu zaman mövqe şəxsiyyətin struktur durumuna aid olan dayanıqlı komponent kimi qəbul olunur.

Psixoloji tədqiqatlar əsasında şəxsiyyətin mövqeyi filosoflar tərəfindən şəxsiyyətin və cəmiyyətin münasibətlərinin xarakterini əks etdirən struktur-şəxsiyyət qurumu kimi müəyyən edilməyə başlanıldı: Şəxsiyyətin mövqeyi — şəxsiyyətin cəmiyyətə, digər insanlara və özünə qarşı olan dayanıqlı, daxilən dərk edilmiş və sosial dəyərlər sistemi ilə şərtləşdirilmiş münasibətlər sistemidir.

“Şəxsiyyət mövqeyi” anlayışı bir sıra pedaqoqlar tərəfindən də təhlil olunmuşdur. Məsələn, daxili şərtləşdirilmiş davranışın davamlı tendensiyası kimi şəxsiyyətin mövqeyi tərbiyəlilik meyarı kimi qəbul olunur. Bu halda mövqe şəxsiyyətin formalaşmasını müəyyən edir, yəni şəxsiyyətin xüsusiyyətləri və keyfiyyətlərinin məcmusudur. Misal üçün Z.S. Tselenko pedaqoji idarəçiliyin üslubunu xarakterizə edən doqquz ictimai-psixoloji xassə təqdim edir: təhsilalana sevgi hissi, pedaqoji nikbinlik, təhsilalanın şəxsiyyətinin tanınması, pedaqoji əməyə davamlı istiqamətlilik, tələbkarlıq, səbr, inadkarlıq, məsuliyyət, obyektivlik, həyatsevərlik.

Şəxsiyyətin xarici təzahürünə deyil, daxili məzmununa müraciət edilməsi dispozisiyanın mövqeyin əsası kimi qəbul olunmasına gətirib çıxarır. F. Fridrixin fikrincə davranış dispozisiyası davranış üsulunu “daxilən” səbəbləndirənə deyilir. V.A. Yadov isə şəxsiyyətin dispozisiya nəzəriyyəsini işləyib hazırlamışdır.

Mövqe — nöqteyi-nəzər, hərəkət və davranışın xarakterini müəyyən edən hər hansı bir işə, məsələyə münasibətdir. Digər bir tərifdə isə göstərilir: “Mövqe - uyğun davranış və hərəkətlərdə əks olunan insanın gerçəkliyin müəyyən tərəflərinə olan dayanıqlı münasibətlər sistemidir”. Müəllim və kursant münasibətlərinə gəldikdə isə burada fərqli situasiyalar müşahidə olunur. Buna əsaslanan P.M. Yerşov üç mövqeni ayırır: “yuxarıdan əlavə”, “aşağıdan əlavə”, “yaxından əlavə”. A.B. Dobroviç qeyd olunan bu üç mövqeyə dördüncüsünü əlavə edir - “iştirak etməmək mövqeyi”. A.A. Uxtomski isə iki mövqenin adını çəkir: “oxşar” və “həmsöhbət”. “Oxşar” mövqe ondan ibarətdir ki, müəllim və ya təhsilalan həmsöhbət olduğu adamda yalnız özünü görə bilir. “Həmsöhbət” mövqeyi isə özünü müəllim və ya təhsilalanın ünsiyyət zamanı öz şəxsiyyətinin dominantlığını aradan qaldıraraq digər insanın tərəfində durmaq, onu görmək və anlamaqda göstərir. V.A. Kan-Kalik peşəkarlıq davranışında bir neçə qeyri düzgün mövqeni ayırır və onları xarakterizə edir: "Monblan" (Pedaqoqun təhsilalanların üzərində üstün mövqeyi), "Çin səddi" (qarşılıqlı anlaşmada müəllim və təhsilalanın arasında mövcud olan maneə), "Lokator" (müəllimin bütün siniflə işləməyi bacarmaması), "Dost" (dostluq münasibətlərinə görə işgüzar münasibətlərini qurban verən pedaqoq), "Hamlet" (özündən əmin olmayan, tərəddüd edən pedaqoq), "Kar" (dərs zamanı yalnız özünü görən və eşidən pedaqoq), "Mən özüm" (təhsilalanların fəallığını öz fəallığı ilə əvəz edən pedaqoq) və s. [ 4].

Müəllimin mövqeyi ünsiyyət sahəsində təhsilalanların yaş həddinə və psixoloji xüsusiyyətlərinə uyğun mükəmməl şəkildə müəyyənləşdirilmiş istiqaməti də özündə əks etdirə bilər. Bu halda, aşağıdakı şərtlərin necə yerinə yetirilməsindən asılı olaraq tərbiyəçinin bu kimi mövqeləri ayırd edilir: təşkilatçı, rəhbər, məsləhətçi. Əgər hərbi məktəbdən söhbət gedirsə, onda bu kursantların kollektivinə münasibətdə xarici mövqedən daxili mövqeyə keçid

dəməkdir; kursantlara birbaşa təsirin payının azalması və dolayı təsirin isə artmasıdır; idarəçilik funksiyalarının bir hissəsinin kursant özünüidarəsinin kollektiv orqanlarına ötürülməsidir; hər bir öyrənənin daxili aləminə yüksək səviyyədə təsir etməyə başlamaqdır. Qeyd və təhlil etdiyimiz bütün mövqeləri "müəllim-kursant" qarşılıqlı təsirində tətbiq etməyin mümkünlüyü şübhəsizdir. Lakin araşdırmamız zamanı müəllimlə kursantların qarşılıqlı əlaqəsinə əsas konseptual yanaşmalar hazırlanmışdır. Onlardan ən mühümləri və onların xarakterik xüsusiyyətləri aşağıdakı kimidir:

Mövqeyə şəxsiyyət-fəaliyyət yanaşması.

B.Q. Ananyevə görə, mövqe şəxsiyyətin statusunun subyektiv və fəaliyyət tərəfi olaraq, şəxsiyyətin münasibətlərinin mürəkkəb sistemini, fəaliyyətində rəhbər tutduğu istiqamət və motivləri, bu fəaliyyətin yönəldiyi məqsəd və dəyərləri özündə əks etdirir [2]. Fəaliyyət yanaşması aspektində mövqe şəxsiyyətin obyektlə əlaqəsi kimi müəyyənləşdirilir. Mövqelər müəyyən bir obyektin qiymətləndirilməsini ifadə edir. Qiymətləndirmə anlamı altında insanın hər hansı bir obyektə qarşı müsbət və ya mənfi münasibəti, bu obyektlə əlaqədar olan hər bir "əhəmiyyətli narahatlığ"nı başa düşmək lazımdır. "Mövqelər müəyyən obyektin qəbuluna və ya rədd edilməsinə gətirib çıxarırlar. Bu insanın həmin obyektə olan az-çox daimi münasibətində öz əksini tapır" (F. Fridrix).

Belə mövqe şəxsiyyətin fəallığının ifadəsidir və onun fəaliyyətdə özünü göstərməsidir. Misal üçün, bu şəxsiyyətin mütəxəssis modelində özünü göstərməsidir ki oda özündə aşağıdakı elementləri ehtiva edir:

— peşəkar fəaliyyətin növləri və funksiyaları;
— peşəkar fəaliyyətin strukturu;
— şəxsiyyətin peşəkarlıq cəhətdən əhəmiyyətli keyfiyyətləri;
— səciyyəvi səhvlər və çətinliklər;
— fəaliyyət sahələri.

Beləliklə, mütəxəssis modeli fəaliyyət modelindən və şəxsiyyət modelindən ibarətdir: 1) subyektlik (fəaliyyəti həyata keçirən və ünsiyyətdə iştirak edən şəxsiyyətin fəal rolu); 2) səriştəlilik (subyektin məqsədyönlüyünün onun fəaliyyətinin səmərəliliyi ilə optimal uyğunluğu - bu nəzəriyyə ilə praktikanın vəhdəti. şəxsiyyətin öz peşəkar fəaliyyətini həyata keçirməyə hazır olmasıdır); 3) kommunikativlik (sosilallıq), ünsiyyətçillik; 4) refleksivlik (özünü dərk etmə, özünə münasibət, özünü əks etdirmə, reallıqda mən necəyəm, başqası məni necə görür, başqası məni necə təsəvvür edir).

Mütərəqqi və mürtəce pedaqoji mövqe (İ.P. İvanov).

Mütərəqqi mövqe hər bir tələbənin birgə fəaliyyətə uyğun olan real, fəal və yaradıcı iştirakını təmin edir. Belə mövqe təcrübənin ötürülməsinin reproduktiv xüsusiyyətinə görə tələbədə istehlakçı texnologiyasının yaranmasına qarşı yönəlmişdir.

Mövqenin "Aparıcı-aparılan" növü (V.O. Kutyev).

Öyrədilənlərin (aparılan, fəal hərəkət edən, əməkdaş, aparıcı) mövqeyi müəllimin ("bilavasitə rəhbərlik - yerinə yetirilmə", "bərabər hüquqlu", "ikinci dərəcəli rəhbərlik - sərbəst fəaliyyət") mövqeyindən asılıdır. Beləliklə, pedaqoji əlaqədə təsir ləğv olunmur, əksinə, qalır, lakin birstiqamətli təsir iki istiqamətli təsirlə əvəz olunur.

Alimlər adətən müəllim və tələbələrin bir statusdan digər statusa qarşılıqlı keçməsinə diqqət yetirirlər (aparıcı-aparılan, bərabərlik, tərəfdaşlıq, aparılan-aparıcı). Subyekt-obyekt qarşılıqlı təsiri mürəkkəb daxili struktura malikdir və özündə iki qat refleksiv olunmuşdur. Canlı fəaliyyətin öz aralarında qarşılıqlı təsirdə olan iki subyektə bölünməsi ona gətirib çıxarır ki, hər iki tərəf fəaliyyətin həm obyekti həm də subyekti kimi çıxış edir. Əvvəl müəllim

subyekt kimi kursanta təsir edir və onda müəyyən reaksiya yaradır, sonra isə kursant özü müəllimə təsir edir, bu halda müəllim özü subyekt mövqeyində durur, öz hərəkətlərini şərtləşdirir və müəyyən formada kursantın hərəkətlərinə reaksiya verir. Hər bir pedaqoji situasiyada müəllim həm subyekt həm də obyekt qismində çıxış edir. Qeyd edək ki, müəllim üçün obyekt rolu da mühüm əhəmiyyət kəsb edir. Tələbəni anlamağa, onun xüsusiyyətlərini nəzərə almağa, əks əlaqə qurmağa imkan verir. Pedaqoji qarşılıqlı təsir yalnız müəllim və tələbələrin subyekt-obyekt münasibətlərinin dəyişkənliyi zamanı dəyərli olur. Pedaqoji qarşılıqlı əlaqədə iki tərəf də fəaldır, ona görə də onlar subyekt-obyekt münasibətindədirlər

Subyektli mövqe. V. A. Slastenin kimi [4] subyektliyi insan varlığının vacib xüsusiyyəti kimi deyil, gələcək mütəxəssisin şəxsiyyətinin xüsusiyyəti kimi qəbul etmək daha məqsədəuyğundur. Subyektliyin öyrənilməsi təhsil prosesində şəxsiyyətin tutduğu mövqenin təhlili vasitəsi ilə mümkündür. O müxtəlif tərkibli olub, obyekt-subyekt mövqeyi intervalında dəyişir. Sonuncunun bərqərar olması, uyğun tədris təşkilatı ilə təmin olunmuş "müəllim-kursant" kommunikasiyası ilə, şəxsiyyətin daxili keyfiyyəti olan subyektliyin inkişafına, kursantın həyatının digər sahələrində onun aktuallaşmasına kömək edəcəkdir.

Subyektli mövqe — mürəkkəb bütöv bir sistemdir, bütün komponentləri və onların arasında qarşılıqlı təsir vasitələrini struktur baxımdan birləşdirir. Onun blokları — motivasiya-dəyərli, münasibətli, tənzimləyici-fəaliyyətlidən ibarətdir. Kursantın subyektliyi fenomenini tədqiq etməklə belə nəticəyə gəlirik ki, onun araşdırılması yalnız "şəxsiyyət mövqeyi" anlayışı vasitəsi ilə mümkündür. Ümumi formada subyektli mövqe şəxsiyyətin peşəkar inkişafının mövqeyi və insana müəyyən şəkildə xarici və daxili mühitlə eyni zamanda qarşılıqlı əlaqə yaratmaq imkanı verən daxili psixoloji elementlərin sistemli münasibəti kimi qəbul edilə bilər.

Təhsilalanın subyekt mövqeyinin inkişafının əsas şərti müvafiq uyğunluq və şəxsiyyətin daxili potensialı ilə xarici ideoloji təsirlərin bir-birini tamamlamasıdır. İdealda pedaqoji tələblərin sistemi təhsilalanın həyatı-peşə inkişafının yollarının axtarışı bacarıqlarını əngəlləmir, əksinə, onun fəallığına, seçiciliyinə, yaradıcı məqsədlərinə təkan verir.

Hərbiçinin peşəkarlıq mövqeyindən danışarkən vurğulamalıyıq ki, o həm baza həm də əsas vektor kimi çıxış edir, ünsiyyətin nəticəsini və xarakterini müəyyən edir. Hərbiçinin mövqeyinin humanizm, sosial-dəyər yönümü, psixoloji-pedaqoji səriştəlilik, xidməti etika kimi xüsusiyyətləri onun işlərinin uğurlarını təmin edir, subyekt-obyekt münasibətlərində vahid rəhbərlik prinsipinin həyata keçirilməsi zamanı yaranan ziddiyətləri aradan qaldırmaq üçün imkan yaradır. Bu kontekstdə "avtoritar", "liberal-güzəştli" və "əsl kollektivçi" pedaqoji mövqelərini ayırmaq zəruridir. Bu mövqelərdə müəllimin kursanta yönəlmiş müxtəlif məqsədləri (istiqamətləri) öz əksini tapır (fəal-müsbət, passiv-müsbət, passiv-mənfi, fəal-mənfi).

Müəllim-kursant qarşılıqlı münasibətlərində müəllimin sosial mövqeyi müstəsna əhəmiyyət təşkil edir. Bu mövqeni üç fərqli səviyyəli mövqelərə ayırmaq olar: 1) şəxsiyyət tipinə yönlənilmək (müəllim özünün fəaliyyət məqsədlərinə hazırki dövrdə dominantlıq təşkil edən şəxsiyyət tipinə olan geniş ictimai tələblər baxımından yanaşır); 2) Öz fəaliyyətinin sosial funksiyalarını məhdud anlamda başa düşmək (davranış bacarıqlarını aşılamaq və bilik vermək); 3) fəaliyyətin funksiyasını əsas götürmək (gündəlik, ənənəvi iş axıcılığına sadiqliyi və günün hadisələri çərçivəsindən kənara çıxan hər şeyə qarşı inamsızlığı ilə tanınan müəllim tipi).

Şəxsiyyətin inkişaf istiqamətinin nəzərə alınması onun yaxın zamanlarda inkişafının (kursantın yalnız müəllimin köməyi ilə yerinə yetirə bildikləri) və aktual inkişaf istiqamətinin

(kursantın şəxsi inkişafına əsaslanaraq müəllimin köməyi olmadan yerinə yetirə bildikləri) necə nəzərə almaqdan asılı olaraq baş tutur [3]. Bundan da üç mövqeyi ayırmaq olur: a) tədris prosesində şəxsiyyətin inkişafının yaxın və aktual sahələrinin optimal şəkildə nəzərə alınması; b) tədris prosesində əsas diqqətin yaxın inkişaf sahəsinə yönəlməsi və aktual inkişaf zonası ilə yetərincə əlaqənin olmaması. c) kursantın şəxsiyyətinin inkişafı vəziyyətində müəllimin roluna görə mövqenin seçilməsi.

Qeyd olunanlardan çıxış edərək tədqiqatımızın nəticəsi kimi üç fəaliyyət üslubunu təklif edirik: 1) qabağlayıcı üslub (müəllim kursantın şəxsiyyətinin inkişafına fəal təsir göstərir və onu ardınca aparır); 2) dəstəkləyici üslub (müəllim kursantın şəxsiyyətinin inkişaf vəziyyətinə uyğunlaşır – onun şəxsiyyətinin inkişafında ən yaxşıları dəstəkləyir); 3) situativ üslub (müəllim yalnız situativ şəkildə kursanta və onun şəxsiyyətinin inkişaf vəziyyətinə təsir edir).

Müəllim və kursantların şəxsiyyət baxımından qarşılıqlı təsirinin sintetik modelinin hazırlanmasına ümumi konseptual yanaşma yuxarıda qeyd etdiklərimiz kimidir. Şəxsiyyətin tərbiyəsi prosesinə və tələbkarlığın şəxsiyyətə olan hörmətlə uzlaşdırılmasına optimist və pessimist baxışları bölüşən müəllim mövqeləri də mövcuddur (A.S. Makarenko).

Hal-hazırda hərbi təhsil prosesində pedaqoji texnologiyanın strateji vəzifəsi qismində “şəxsiyyət” yanaşması çıxış edir. Bu yanaşmada sistem yaradan amil aydın şəkildə qeyd olunur-təhsilalanın təkrarolunmaz şəxsiyyəti.

Kursantın şəxsiyyətinin inkişaf məsələləri onun həyat fəaliyyətinin bütövlüyü kontekstində, şəxsiyyətin inkişafının konkret şəraiti isə onun inkişafının müəyyən mərhələsi kontekstində götürülür. Bu zaman aşağıdakıların nəzərə alınması zəruridir: şəxsiyyəti inkişaf etdirən mühitin təşkilinin vahid metodologiyasının hazırlanması (texnologiyaya akmeoloji yanaşma və bioqrafik metodun tətbiqi), kursantın peşəkarlıq rolu və şəxsiyyətinin inkişafının insan həyatının mənası və məqsədi məsələləri ilə əlaqəsi (antropoloji yanaşma), “mənəvi” insanın varlığı haqqında (kulturoloji yanaşma), mənəvi insanın real ictimai həyatda özünü ifadəsi və özünütəsdiqi (personalist yanaşma), bütün həyat gücünün peşəkarlıq rolunun reallaşması üçün kursantlar tərəfindən öz fərdi potensiallarından intensiv istifadə edilməsi (fərdi yanaşma), insani maraqların və tələbatların fəaliyyətdə reallaşması (fəaliyyəti yanaşma), kursantın şəxsiyyətinin inkişafında fəallıq, yaradıcılıq, özfəaliyyət, sərbəstlik, özünütərbiyə, özünütəhsil və s. (subyektli yanaşma), hərbi peşənin humanistliyinin mənəvi-əxlaqi əsasları (humanist yanaşma).

**Məqalənin aktuallığı.** Müharibə şəraitində olan respublikamızda ordu üçün müasir səviyyədə kadrların hazırlanması sahəsində müəllim və kursantlar arasında münasibətlərin zəruri pedaqoji tələblərə uyğunlaşdırılması baxımından məqalə aktual hesab edilməlidir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə mövzu ilə bağlı xarici ölkə alimlərinin, psixoloq və sosioloqların nəzəri müddəalarından və aparılmış tədqiqat nəticələrindən istifadə olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən hərbi təhsil müəssisələrinin müəllimləri, kursantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. H.Ə. Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997.

2.Ананьев Б.Г. Человек как предмет познания. Л.: ЛГУ, 1968.

3. Выготский Л.С. Собрание сочинений. М.: 1984. Т.6.

4. Кан-Калик В.А. Учителю о педагогическом общении: Книга для утштеля. М.: 1987.
5. Сластенин В.А. Доминанта деятельности. М.: Народное образование. 1998.
6. Филатов О.К. Информатизация современных технологий обучения в высшей школе. Дис. канд. пед. наук. М.: 1999.
7. Цукерман ГА. От умения сотрудничать к умению учить себя. // Психологическая наука и образование. 1996, № 1.

**Г. Баширова**

## Отражение педагогического взаимного влияния в позиции учителя и курсанта

## Резюме

В статье анализируются идеи и идеи, предложенные разными авторами в философско-педагогической литературе по отражению педагогического взаимного влияния в позиции учителя-стажера, и выражает отношение к ней. Отмечается, что приобретение совершенных знаний и навыков будущих офицеров и уровень их профессионализма, отвечающего современным требованиям, также во многом зависят от отношений между учителем и курсантом.

В результате исследования предлагаются три вида деятельности: 1) превентивный стиль (учитель оказывает активное влияние на развитие личности обучаемого и ведёт его за собой); 2) поддерживающий стиль (учитель приспосабливается к состоянию развития личности у обучаемого — поддерживает лучшее в его личностном развитии); 3) Ситуативный стиль (учитель только ситуативно влияет на курсанта и состояние развития его личности).

**G. Bashirova**

## Being reflected in the position of teacher and cadet of the pedagogical mutual influence

## Summary

The article reflects the thoughts and ideas put forward by various authors, thorough analysis of the literature regarding teacher-student in the position of teaching interacting philosophical-pedagogical said. Excellent knowledge and skills and professionalism of teacher-student relations also depends largely on the grounds of officers, says that meet modern requirements.

The results of the investigation activities are offered three styles: 1) style (the teacher has a strong influence on the development of individual students, and it is succeeding); 2) supportive style (student teachers are adapting to the situation - the best support in the development of personality development of his personality); 3) situational style (teachers and students to develop only on condition his identity is situational).